

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 40 (21.450)

*1 mart 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Fevralın 29-da Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısının keçirilməsinin əhəmiyyətindən danışıb, bu toplantıda ötən illər ərzində görülən işlərə və qarşıda duran vəzifələrə baxılacağını bildirib. Ötənilki toplantıdan sonra layihə üzvləri arasında əlaqələndirmə işlərinin yüksək səviyyədə, uğurla aparıldığını deyən dövlətimizin başçısı 2015-ci ildə TANAP kəmərinin təməlinin qoyulduğunu diqqətə çatdırıb, bu layihənin "Cənub" qaz dəhlizinin reallaşmasında mühüm rol oynadığını bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 29-da Türkiyə Respublikasının enerji və təbii sərvətlər naziri Berat Albayrakı qəbul edib.

* * *

Fevralın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş nazirinin müavini və energetika naziri Kaxa Kaladzeni qəbul edib.




## Şahbuz rayonunun Daylaqlı kəndi müasir yaşayış məntəqəsinə çevrilmişdir

Ölkəmizdə aparılan davamlı sosial-iqtisadi inkişaf hər bir şəhəri, rayonu və kəndi əhatə edib. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi, ***Azərbaycan sabitlik məkanıdır, inkişaf ölkəsidir.*** Bu gün Naxçıvan Muxtar Respublikasında da geniş tikinti-quruculuq işləri aparılır, yaşayış məntəqələrində insanların rahatlığına xidmət edən müasir infrastruktur yaradılır. Mövcud inkişaf və sabitlik kəndlərdə məskunlaşmanı artırır, insanların rifahı yüksəlir. Bu tədbirlər Şahbuz rayonunda da uğurla həyata keçirilir. Görülən quruculuq işlərindən sonra rayonun Daylaqlı kəndi muxtar respublikanın müasirləşən kəndlərinin sırasına daxil olmuşdur.

## Daylaqlı kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir

Fevralın 29-da Daylaqlı kənd tam orta məktəbinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.



Tədbirdə məktəbin direktoru Yenibar Hüseynov çıxış edərək demişdir ki, aparılan kompleks quruculuq və abadlıq işləri kəndin bugünkü və gələcək inkişafına təminat verir. Hər cür şəraiti olan müasir məktəb binasının tikilib istifadəyə verilməsi bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Çünki gələcək inkişafa yol açan mühüm sahələrdən biri təhsil, gənc nəslin təlim-tərbiyəsidir. Biz bunun mahiyyətini başa düşür və söz veririk ki, nizam-intizamı daha da möhkəmləndirəcək, pedaqoji işi günün tələbləri səviyyəsində quracaq, intellektli, vətənpərvər gənclər yetişdirəcəyik.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Daylaqlı kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, onlara tədrisdə uğurlar arzulayaraq demişdir: Ölkəmizdə təhsilə böyük diqqət göstərilir, bu sahənin maddi-texniki bazası möhkəmləndirilir. Çünki təhsil hər bir ölkənin gələcəyidir. Bu gün istifadəyə verilən Daylaqlı kənd tam orta məktəbi də ölkəmizin gələcəyinin təmin olunması sahəsində görülən işlərin davamıdır.

Ümummilli liderimiz Heydər Əliyevin ***"Məktəb Azərbaycanın gələcəyi üçün böyük məsuliyyət daşıyır"*** fikrini xatırladan Ali Məclisin Sədri demişdir ki, ölkəmizin gələcəyinin təmin olunması sahəsində dövlətin üzərinə düşən vəzifələr uğurla yerinə yetirilir. Ölkəmizin hər yerində məktəblər tikilir, şagirdlərin yaxşı təhsil alması üçün müasir tədris şəraiti yaradılır, müəllim əməyi qiymətləndirilir. Bu gün istifadəyə verilən Daylaqlı kənd tam orta məktəbində də həm şagirdlər, həm də müəllimlər üçün lazımi şərait vardır.

Məktəbin nailiyyətlərinin qənaətləndirici olduğunu bildirən Ali Məclisin Sədri bunu tədrisin düzgün təşkilinin nəticəsi kimi dəyərləndirmiş, kollektivə təşəkkür edərək demişdir: Daylaqlı kənd tam orta məktəbinin müəllim və şagirdləri yaradılan şəraitdən düzgün istifadə etməli, tədrisə və təlim-tərbiyəyə ciddi diqqət yetirilməli, müəllim hazırlığı lazımi səviyyədə olmalıdır. Əgər müəllim hazırlığı lazımi səviyyədədirsə, onda məktəbdə şagird hazırlığı, təhsilin səviyyəsi də yüksək olacaq, nailiyyətlər artacaqdır.

Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində kollektivə uğurlar arzulamış, onları yeni məktəbin istifadəyə verilməsi münasibətilə bir daha təbrik etmişdir.



Sonra Ali Məclisin Sədri Şahbuz rayonunun ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan 16 şagirdə kompüter hədiyyə etmiş, məktəb binasında yaradılan şəraitlə tanış olmuşdur.



Məlumat verilmişdir ki, üçmərtəbəli məktəb binası 168 yerlikdir. Burada 14 sinif otağı, o cümlədən 3 elektron lövhəli sinif, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter və müəllimlər otaqları, kitabxana, bufet və idman zalı vardır. Məktəbin kitabxana fondu zənginləşdirilmiş, 1800-dən artıq ədəbiyyat və dərslik kollektivin istifadəsinə verilmişdir.

Ali Məclisin Sədri məktəbin idman zalında olmuş, şagirdlərin fiziki inkişafı və sağlam böyüməsində idman dərslərinin əhəmiyyətini qeyd etmişdir.

Ümumtəhsil məktəblərində elektron dərsliklərdən istifadə və distant dərslərin keçirilməsi üçün lazımi şərait yaradılır. Kompüter otağında 13 kompüter dəsti quraşdırılmış və internetə qoşulmuş, elektron lövhəli siniflər lazımi multimedia sistemləri və elektron dərsliklərlə təchiz olunmuşdur.

Elektron lövhəli sinifdə muxtar respublikanın 213 təhsil müəssisəsi ilə Naxçıvan Dövlət Xalça Muzeyi arasında keçirilən distant dərs izlənilmiş, şagirdlərə qədim xalçaçılıq sənəti haqqında ətraflı məlumat verilmişdir.

Fənn laboratoriyalarının müasir təchizatı fizika, kimya və biologiya dərslərinin səmərəli təşkilinə imkan verəcəkdir. Müasir şahmat sinfi və hərbi kabinə isə şagirdlərin zehni inkişafına və vətənpərvər böyüdülməsinə hesablanıb.

Şahmat sinfinə baxış zamanı məlumat verilmişdir ki, məktəbin şagirdləri bu idman növünə böyük maraq göstərir. Şahmat üzrə keçirilən rayon birinciliyində məktəbin 4-cü sinif şagirdi Sinan Məhərrəmli qalib olmuşdur.

Ali Məclisin Sədri gənclərin zehni inkişafında şahmatın əhəmiyyətini qeyd etmiş, ümumtəhsil məktəbləri şagirdləri arasında şahmat üzrə rayon və muxtar respublika çempionatlarının keçirilməsini tapşırmışdır.

Sonra müəllimlərlə görüş olmuşdur.

Müəllim Əli Mirzəyev demişdir ki, məktəbimizdə bu günədək belə müasir tədris şəraiti olmamışdı. İstifadəyə verilən yeni məktəb binası müəllim, şagird və valideynlərin arzularını reallığa çevirdi. Məktəb binası qarşıdan gələn Novruz bayramı ərəfəsində kollektivimizə ən dəyərli hədiyyədir. Müəllim peşəsi müqəddəsdir. Ölkəmizdə bu ad uca tutulur, müəllim əməyinə yüksək qiymət verilir. Müasir tədris şəraitinin yaradılması gələcəyimizə hesablanmış tədbir olmaqla yanaşı,

*Ardı 2-ci səhifədə*

həm də müəllim əməyinə verilən yüksək qiymətdir. Bu diqqət və qayğının müqabilində səylərimizi daha da artıracaq, bilikli və vətənpərvər gənclər yetişdirəcəyik.

Ali Məclisin Sədri demişdir ki, hər bir ölkənin davamlı inkişafı təhsilli və vətənpərvər gənclərin yetişdirilməsindən başlayır. Bu iş məktəblərdə həyata keçirilir. Lakin ölkənin gələcəyini hazırlamaq yalnız məktəb kollektivinin üzərinə düşən vəzifə deyil. Bu məsələ cəmiyyətin hər bir üzvünü düşündürməlidir. Müəllimlərin fəaliyyəti təkcə məktəblə məhdudlaşmamalı, məktəb-ailə, müəllim-şagird-valideyn münasibətləri düzgün qurulmalı, məktəblər şagird yetişdirməklə yanaşı, eyni zamanda kəndin ziyalı mərkəzinə çevrilməlidir. Daylaqlı kənd tam orta məktəbində perspektiv nəzərə alınmış, şagirdlərin yaxşı oxuması və sağlam böyüməsi üçün hər cür şərait yaradılmışdır. Ötən il məktəbi bitirən məzunlar ali məktəblərə, 9-cu sinif bazasından orta ixtisas məktəbinə və Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşlar. Bu da onu göstərir ki, məktəbdə təhsilli şagirdlərlə yanaşı, vətənpərvər gənclər də yetişdirilir. Müəllimlər bundan sonra da üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, məktəbdə vətənpərvər və savadlı gənclər yetişdirilməlidir.

Məktəbin həyatında da geniş abadlıq işləri görülmüş, yaşıllıqlar salınmış, açıq idman qurğuları qoyulmuşdur.

## Daylaqlıda yeni kənd mərkəzi inşa olunmuşdur





Fevralın 29-da Daylaqlı Kənd Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, iki mərtəbədən ibarət olan binada dövlət qurumları üçün nümunəvi iş şəraiti yaradılmışdır. Mərkəzdə rabitə evi, feldşer-mama, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyasının ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyə üçün iş otaqları, klub və iclas zalı vardır. Kitabxanada 4630 ədəbiyyat oxucuların istifadəsinə verilmişdir. Rabitə evində poçt bölməsi yaradılmış, dövri mətbuat, internet və danışıq kartlarının satışı təşkil olunmuşdur. Fiber-optik xəttin çəkilməsi və yeni ATS-in qurulması Daylaqlı və Kiçikoba kəndlərinin əhalisinə keyfiyyətli rabitə və sürətli internet xidmətinin göstərilməsinə imkan verir.

Baytarlıq məntəqəsində xidmətin təşkili üçün lazımi şərait yaradılmışdır. Bildirilmişdir ki, baytarlıq xidməti işçiləri mal-qaranın baş sayının artırılmasını, cins tərkibinin yaxşılaşdırılmasını və sağlamlığının qorunmasını diqqət mərkəzində saxlayırlar.

Yeni Azərbaycan Partiyası Daylaqlı və Kiçikoba kənd ərazi ilk təşkilatının sədri Nihad Quliyev demişdir ki, bu gün ərazi ilk təşkilatında gənclər üstünlük təşkil edir və onların sayı ilbəil artır. Bu da ölkəmizin bugünkü inkişafının, hər bir kənddə aparılan kompleks quruculuq işlərinin, insanların rahat yaşayışı üçün yaradılan şəraitin nəticəsidir.

Feldşer-mama məntəqəsi 4 otaqdan ibarətdir. Otaqlar təyinatına uyğun tibbi avadanlıqlarla təchiz olunmuşdur. Məntəqədə sakinlərə ilkin tibbi yardımın göstərilməsi və mütəmadi profilaktik tədbirlərin görülməsi üçün lazımi şərait yaradılmış, dərman preparatları qoyulmuşdur.

Ali Məclisin Sədri ahıl insanların, hamilə qadınların və uşaqların vaxtlı-vaxtında tibbi müayinədən keçirilməsinin əhəmiyyətini vurğulamışdır.

44 yerlik iclas zalı kənddə müxtəlif tədbirlərin keçirilməsinə imkan verəcəkdir.

## Daylaqlıda yeni xidmət mərkəzi istifadəyə verilmişdir






Fevralın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Daylaqlı kəndində yeni xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir. Burada 5 nəfər işlə təmin olunmuşdur.

Sonra Ali Məclisin Sədri kənd sakinləri ilə görüşmüşdür.

Ali Məclisin Sədri demişdir: Daylaqlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik Daylaqlı və Kiçikoba kəndlərini əhatə edir. Aparılan quruculuq işlərindən sonra Daylaqlı kəndinin siması tamamilə dəyişmişdir. Kənddə məktəb binası, kənd və xidmət mərkəzləri tikilmiş, geniş abadlıq işləri görülmüşdür. Digər tərəfdən muxtar respublikada həyata keçirilən su-kanalizasiya layihələri çərçivəsində Daylaqlı kəndindəki mənzillər də keyfiyyətli içməli su ilə təmin olunmuşdur. Bütün bunlar sakinlərin rahatlığına hesablanmış tədbirlərdir. Rahat şərait isə yaxşı əhval-ruhiyyə və məskunlaşmanın artması deməkdir. Həmçinin kəndin təbii şəraiti, rayon mərkəzinə və Naxçıvan şəhərinə yaxın məsafədə yerləşməsi imkan verir ki, kənd adamları yetişdirdikləri məhsulları bazarlara rahat çıxarsınlar. Bütün bunların müqabilində sakinlər qarşıda duran vəzifələri yerinə yetirməli, qurulanlar qorunmalı, kənd daha da abadlaşdırılmalı, yaşıllıqlar artırılmalıdır.

Ali Məclisin Sədri muxtar respublikanın kəndlərinin abadlaşdırılması istiqamətində görülən işlərin bundan sonra da davam etdiriləcəyini bildirmiş, sakinləri qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etmişdir.

Sakinlər adından minnətdarlıq edən İsmayıl İsmayılov demişdir ki, ölkəmiz inkişaf etdikcə sakinlərin yaşayış səviyyəsi də yüksəlir. Aparılan quruculuq işləri Daylaqlı kənd sakinlərinin böyük sevincinə səbəb olmuşdur. Yaşadığımız bu sevinci sözlə ifadə etmək çətindir. Kənddə qısa müddət ərzində aparılan quruculuq işləri bütün sahələri əhatə edib. Əhalinin içməli və suvarma suyuna olan tələbatı tam ödənilir. Fasiləsiz elektrik enerjisindən, təbii qazdan və rabitə əlaqəsindən istifadə edirik. Sakinlər göstərilən qayğının müqabilində səylə çalışacaq, təsərrüfatlarını genişləndirəcək, ölkəmizin inkişafına öz töhfələrini verəcəklər.

* * *

Kənddə avtomobillərin rahat hərəkəti təmin olunmuş, 4 kilometrlik kənddaxili yollar yenidən qurulmuş, 7 su keçidi qoyulmuş, beton kanal çəkilmişdir. Rabitə və elektrik təchizatının yaxşılaşdırılması məqsədilə 1100 metr məsafədə fiber-optik, 1270 metr rabitə və 3 kilometr yeni elektrik xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Muzeyləri ziyarət davam edir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi davam etdirilir.*



Fevralın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Dövlət Bayrağı Muzeyində olmuşlar.

Məlumat verilmişdir ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılmış və 2014-cü il noyabrın 17-dən fəaliyyətə başlamışdır. Hazırda muzeydə Naxçıvanda müxtəlif dövrlərdə qəbul edilmiş bayraqlar və dövlət atributları, müvafiq sərəncamlar, kitab və fotoşəkillərdən ibarət 115 eksponat nümayiş etdirilir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis edilmiş üçrəngli bayrağımız ikinci dəfə ulu öndər Heydər Əliyev tərəfindən 1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılmışdır. Muzeydə həmin illərdə qəbul olunmuş tarixi qərarlar, Azərbaycan Respublikasının Dövlət Bayrağı və digər dövlət atributları haqqında ətraflı məlumatlar yerləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə hər il noyabr ayının 17-si "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü" kimi qeyd edilir.

Ziyarətçilərə tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin bərpa olunmuş bayraqları, gerblər və inzibati xəritələri, Naxçıvan xanlığının dövlət və döyüş bayraqları, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, qədim pul nişanlarının fotoşəkilləri haqqında ətraflı məlumat verilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivləri də Dövlət Bayrağı Muzeyində olmuşlar. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili İşlər Nazirliyinin kollektivləri Heydər Əliyev Muzeyini, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları Hüseyn Cavidin ev-muzeyini, İqtisadiyyat, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları Xatirə Muzeyini, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Dövlət Baytarlıq Xidmətinin kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini ziyarət etmişlər. Rabitə və Yeni Texnologiyalar, Kənd Təsərrüfatı və Səhiyyə nazirliklərinin kollektivləri Bəhruz Kəngərli Muzeyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin əməkdaşları Cəmşid Naxçıvanskinin ev-muzeyində, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasında, Mərkəzi Seçki Komissiyasının, Dövlət Sosial Müdafiə Fondunun, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları Ədəbiyyat Muzeyində, Dini Qurumlarla İş üzrə İdarənin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyində, Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Dövlət Statistika Komitəsinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurasının, "Şərq qapısı" qəzeti redaksiyasının əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyində olmuşlar.

Həmin gün şəhər və rayon icra hakimiyyətlərinin, eləcə də muxtar respublika mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da müvafiq olaraq rayonlarda fəaliyyət göstərən muzeyləri ziyarət etmişlər.

**"Şərq qapısı"**

# Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2016-cı ilin fevral ayında bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 fevral tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın yeni tərkibi təsdiq edilmişdir.

"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin 2016-cı ildə yerinə yetirəcəyi aqrotexniki xidmətlərin qiymətləri və yanacaq norması"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 fevral tarixli qərarı qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 fevral tarixli digər bir qərarı ilə isə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 noyabr tarixli 96 nömrəli qərarı ilə təsdiq edilmiş "Texniki nəzarətin həyata keçirilməsinin tələb olunmadığı tikinti obyektlərinin Siyahısı"nda dəyişiklik edilmişdir.

Bununla yanaşı, fevral ayında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə "Naxçıvan Sukanalizasiya" Açıq Səhmdar Cəmiyyəti yenidən təşkil edilmiş, Naxçıvan Muxtar Respublikasında 1 yanvar 2016-cı il tarixə torpaq balansı təsdiq olunmuş, "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda dəyişiklik edilmiş, "İşsizlik müavinətinin və peşə hazırlığı, yenidən hazırlıq və ixtisasartırma dövründə vətəndaşlara verilən təqaüdün minimum məbləği"nin miqdarı təsdiq edilmişdir.

Qəbul edilən normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində ***(www.huquqiaktlar.nakhchivan.az)*** tanış olmaq mümkündür.

***1 mart Ümumdünya Mülki Müdafiə Günüdür***

# Mülki müdafiə xidmətinin nümunəvi təşkili əhalinin rahatlığına təminat verir

*Hər il mart ayının 1-i Ümumdünya Mülki Müdafiə Günü kimi qeyd edilir. Bu günün qeyd olunmasında məqsəd dünya ictimaiyyətinin diqqətini mülki müdafiə xidmətlərinin təşkilinə, insanların və onların əmlakının xilası, təhlükəsizliyinin təmin edilməsi və ətraf mühitin qorunmasına yönəltməkdir.*

Müasir dövrdə elmin və texnikanın sürətlə inkişaf etməsi təbii fəlakətlərlə yanaşı, texnogen hadisələrin və onların dağıdıcı nəticələrinin də artmasına səbəb olmuşdur. Buna görə də hər bir ölkədə mülki müdafiə tədbirlərinin təşkili günün tələbinə çevrilmişdir. Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə əhalinin təbii və texnogen fəlakətlərdən etibarlı mühafizəsinin təşkilini diqqət mərkəzində saxlamış, bu istiqamətdə mühüm tədbirlər görülmüşdür. Zəruri qanunvericilik bazası yaradılmış, 1997-ci il iyunun 10-da "Yanğın təhlükəsizliyi haqqında", həmin il dekabrın 30-da isə "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə mülki müdafiə xidmətinin maddi-texniki bazası xeyli gücləndirilmiş, mütəxəssis hazırlığı günün tələbinə uyğun qurulmuşdur. 2005-ci il dekabrın 16-da ölkəmizdə Fövqəladə Hallar Nazirliyinin yaradılması ilə bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsinə başlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılması muxtar respublikada insanların həyatının, əmlakının baş verə biləcək təbii və texnogen fəlakətlərdən qorunması baxımından atılan mühüm addım oldu. Fövqəladə Hallar Nazirliyi fəaliyyətə başladığı gündən muxtar respublika ərazisində fövqəladə hadisələrin vaxtında aşkarlanması, qarşısının alınması və nəticələrinin aradan qaldırılması, əhalinin və ərazilərin təbii və ya texnogen xarakterli qəzalardan qorunması işini uğurla yerinə yetirir.

Ötən illər ərzində böyük inkişaf yolu keçmiş Fövqəladə Hallar Nazirliyi və onun yerlərdəki strukturları üçün müasir inzibati binalar tikilib istifadəyə verilmiş, şəxsi heyətin sosial təminatının, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülmüşdür. Belə ki, 2012-ci ildə nazirliyin yeni inzibati binası istifadəyə verilmiş, binada müasir xidmət şəraiti, elektron nəzarət və idarəetmə sistemləri yaradılmışdır. Həmçinin 2008-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Şöbəsinin inzibati binası, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad rayon şöbələri, 2013-cü ildə Şərur və Babək rayon şöbələri, 2014-cü ildə isə Sədərək rayon şöbəsi üçün yeni inzibati binalar və texniki qarajlar istifadəyə verilmiş, müasir iş şəraiti yaradılmışdır. Mülki Müdafiə Alayının təlim mərkəzində döyüş hazırlığı məşğələlərinin, təlim və məşqlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılmış, avtomobil və xüsusi təyinatlı nəqliyyat vasitələrinin saxlanması, istismarı və texniki xidmət göstərilməsi üçün müasir avtomobil parkı istifadəyə verilmişdir.

Muxtar respublika ərazisində ehtimal olunan fövqəladə hallara çevik reaksiyanın verilməsi və nəticələrinin aradan qaldırılması zamanı xüsusi riskli axtarış və qəza-xilasetmə əməliyyatlarının aparılması, zərərçəkmişlərə ilkin yardım və təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə 2009-cu ildə Xüsusi Riskli Xilasetmə Xidməti yaradılmış və bu sahədə fəaliyyətin nümunəvi təşkili üçün zəruri addımlar atılmışdır. Nazirliyin mühüm fəaliyyət sahələrindən biri olan aviasiya manqasının fəaliyyətinin təmin olunması məqsədilə vertolyot alınıb gətirilmiş və Mülki Müdafiə Alayının təlim mərkəzində vertolyot meydançası tikilmişdir. Nazirliyin struktur qurumlarının maddi-texniki bazası da əsaslı surətdə yenilənmiş, müxtəlif təyinatlı maşın və mexanizmlərlə təchiz olunmuşdur. Muxtar respublika ərazisində baş vermiş təbii, texnogen hadisələrin statistikasının aparılması istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və ***"112"*** qaynar telefon xətti yaradılmışdır.

Muxtar respublikada tikinti sahəsində təhlükəsizliyin təmin edilməsi məqsədilə 2010-cu ildə Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi fəaliyyətə başlamış, onun nəzdində mühəndis-geoloji, sement və beton laboratoriyası yaradılaraq ən müasir sınaq avadanlıqları və cihazlar ilə təchiz edilmişdir. İdarənin gənc mütəxəssislərinin ixtisaslarının artırılması üçün 5 nəfər dövlət qulluqçusu Bakı şəhərindəki Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinə ezam edilmişdir.

Fövqəladə hallar zamanı təxliyə olunan əhalinin və zərərçəkənlərin tələbatının ödənilməsi, yaşayışın və qidalanmanın normal təşkil edilməsi, habelə ehtimal olunan radioaktiv, kimyəvi və bioloji zəhərlənmələr zamanı əhaliyə vaxtında fərdi mühafizə vasitələrinin paylanması istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, 2014-cü ildə Mülki Müdafiə Alayında mülki müdafiə səfərbərlik ehtiyat anbarı yaradılmış, Şərur şəhərində 2 yaşayış binasının, Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni inzibati binasının zirzəmiləri fərdi mühafizə vasitələri anbarları kimi hazırlanmış və zəruri mühafizə vasitələri təhlükəsizlik tədbirləri nəzərə alınaraq rayon fövqəladə hallar komissiyalarına təhvil verilmişdir. Muxtar respublika ərazisində radioaktiv, kimyəvi və bioloji çirklənmə şəraitində nazirliyin mülki müdafiə qüvvələrinin fəaliyyət göstərməsi üçün müasirtipli radiasiya axtarış və ölçü cihazları gətirilmiş, bu cihazlarla işləyən mütəxəssislər treninqlərdə iştirak edərək müvafiq sertifikatlar almışlar.

Ötən dövrdə xidmətin əməkdaşları tərəfindən əhalinin təhlükəsiz yaşayışının təmin olunması istiqamətində ardıcıl işlər görülmüşdür. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda əhalinin təhlükəsizliyinin təmin edilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar 7 ictimai yaşayış binasının zirzəmisi təmir edilmiş, 201 binanın zirzəmisi təmizlənərək yararlı hala salınmış, mülki müdafiə təyinatlı 96 zirzəmidə təmir işləri görülmüşdür. Həmçinin içməli su mənbələrində monitorinqlər keçirilir, sanitar-gigiyena norma və qaydalarına əməl olunmasına daimi nəzarət edilir. Eləcə də su hövzələrində selə qarşı tikilən bəndlərin, selötürücü qurğuların vəziyyəti daim yoxlanılır, su anbarlarında bəndlərin təhlükəsizliyinə və hidrotexniki qurğuların fəaliyyət rejiminə nəzarət edilir.

Əhalinin mülki müdafiə və fövqəladə hallar sahəsində hazırlanması işi də daim diqqət mərkəzində saxlanılır, idarə, müəssisə və təşkilatlarda bu istiqamətdə maarifləndirici tədbirlər keçirilir. Ötən dövrdə 27 təşkilatda mülki müdafiə təlimləri, 33 müəssisədə 2362 nəfərin iştirakı ilə konfrans, 240 müəssisədə maarifləndirmə tədbirləri keçirilmiş, 215 obyektdə və 156 ümumtəhsil məktəbində mülki müdafiə sahəsində yoxlamalar aparılmışdır. Naxçıvan şəhərinin 9 uşaq bağçasında, 7 ümumtəhsil məktəbində "Fövqəladə hallar uşaqların gözü ilə" mövzusunda tədbirlər keçirilmiş, fövqəladə hallarda davranış və fəaliyyət qaydaları uşaqlara öyrədilmişdir. Mülki müdafiə kursunda 331 tədris qrupunda 6693 nəfər dinləyici iştirak etmiş, 47 metodiki tədris vəsaiti hazırlanmışdır. Həmçinin insanların maarifləndirilməsi məqsədilə teleradiolarda çıxışlar edilmiş, qəzetlərdə 140 məqalə dərc olunmuş, müəssisə və təşkilatlarda mülki müdafiə guşələri yaradılmış, tövsiyə xarakterli yaddaş kitabları, bukletlər və videoçarxlar hazırlanmışdır.

Şəxsi heyətin peşə hazırlığının yüksəldilməsi xidmətin günün tələblərinə uyğun təşkilində mühüm rol oynayır. Bu məqsədlə ötən dövrdə 112 əməkdaş Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, Rusiya, Ukrayna və Belarus respublikalarının müvafiq təhsil ocaqlarına göndərilmiş, onlardan 93 nəfəri təhsillərini başa vuraraq ixtisaslarına uyğun müvafiq işlə təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"Fövqəladə Hallar Nazirliyi öz fəaliyyətini fövqəladə hadisələrin qarşısının alınması, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi istiqamətində qurur. Ölkəmizdə, eləcə də muxtar respublikamızda nazirliyin fəaliyyəti tam təmin olunmuş, struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. İnsanların həyatının, dövlət əmlakının, fərdi təsərrüfatların və sahibkarlıq subyektlərinin baş verə biləcək hadisələrdən qorunması nazirliyin və onun müvafiq qurumlarının qarşısında duran başlıca vəzifələrdir".***

*Fövqəladə Hallar Nazirliyi bundan sonra da mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində səylə çalışacaq, muxtar respublikada mülki müdafiə işi müasir tələblər səviyyəsində qurulacaqdır.*

***Naxçıvan Muxtar Respublikası***
***Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

***Bu rubrikamızda orta əsrlər dövründən başlayaraq müasir dövrümüzədək Naxçıvan torpağının yetişdirdiyi dahilərdən, məşhur şəxsiyyətlərdən söhbət açırıq. Budəfəki yazımızı məşhur naxçıvanlı memarlar Əmirəddin Məsud Naxçıvani və Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvaniyə həsr etdik. Bilirik ki, Azərbaycan memarlıq tarixinin önəmli bir dövrü Naxçıvan memarlıq məktəbinin adı ilə bağlıdır. Məlum olduğu kimi, Naxçıvan memarlıq məktəbinin banisi XI-XII əsrlərdə fəaliyyət göstərmiş, yaratdığı bir çox memarlıq əsərləri ilə dünya şöhrəti qazanmış Əcəmi Əbubəkr oğlu Naxçıvanidir. O, Azərbaycan intibahının çiçəklənmə dövrünün ən görkəmli şəxsiyyətlərindən biri hesab olunur.***

**Unutsaq, unudularıq**

## *Əmirəddin Məsud Naxçıvani və Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani* kimdir?

Bildiyimiz kimi, Naxçıvan-Marağa memarlıq məktəbi dövrün ən mükəmməl inşaat quruluşlarının tətbiqi, tikililərin texniki quruluşu ilə onların bədii həllinin tektonikliyinə nail olunması baxımından ən yüksək səviyyəyə qalxmışdı.

XII əsrdə qüdrətli Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuş Naxçıvanda urbanistik mədəniyyət təşəkkül tapmışdı. Atabəylər dövlətinin hakimiyyəti dövründə Naxçıvan daha əzəmətli bir şəhər olmuş, ölkənin siyasi, iqtisadi, mədəni, sənətkarlıq mərkəzinə çevrilmişdi. Həmin dövrlərdə Naxçıvanda memarlıq sənəti inkişafının yüksək səviyyəsinə çatmış, bununla bağlı Azərbaycan memarlığının ayrıca üslubu yaranmışdır.

Təsadüfi deyil ki, bu üslub sonralar daha da inkişaf etdirilərək geniş yayılmış və "Naxçıvan memarlıq məktəbi" adı ilə tarixə düşmüşdür. Bu məktəb başəriyyətə Əcəmi Əbubəkr oğlu Naxçıvani, Əmirəddin Məsud Naxçıvani, Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani kimi dahi memarlar bəxş etmişdir. Bəli, bu torpaq dünya şöhrətli memarların doğulduğu məkandır. Gəlin onları birlikdə tanıyaq.

*Əmirəddin Məsud Naxçıvani* XII əsr Naxçıvan memarlıq məktəbinin nümayəndələrindəndir. Naxçıvanda Eldənizlər sarayında yaşamışdır. Əcəmi memarlıq üslubunun davamçısı olmuş, dini və xatirə memarlığı ilə yanaşı, ictimai binaların inşasında və bəzədilməsində də iştirak etmişdir. Müasiri Nizami Gəncəvi kimi, Əmirəddin Məsud Naxçıvani də ulduzların Yerdə baş verən hadisələrə müdaxiləsi barədə saray münəccimlərinin fikirlərini qəbul etməmiş, onlar atabəyi guya 40 gəz (42 m) torpağı sovurub aparacaq qasırğa qopacağına inandırmağa cəhd göstərərkən buna etirazını bildirmişdir. Təkzibində haqlı olan Əmirəddin bunu şeirlə də ifadə etmişdir. Bu barədə Zəkəriya Qəzvininin "Əcaib əl-buldan" (Ölkələrin maraqlı tərəfləri) əsərində bəhs olunur. Alim və memar kimi Əmirəddin Məsud Naxçıvani Əcəmi memarlıq üslubunu təkmilləşdirərək Naxçıvanın dini-mədəni arxitekturasının inkişafında mühüm rol oynamışdır. Onun töhfələri Qafqaz regionuna mühüm təsir etmiş, 15-16-cı əsr memarları onun irsindən bəhrələnmişlər. Məsud tərəfindən inşa edilən abidələr bir çox digər beynəlxalq alimlər və arxeoloqlar tərəfindən əhəmiyyətli bir istinad kimi istifadə olunur.

*Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani* orta əsr Azərbaycan memarıdır. Naxçıvan memarlıq məktəbinin ən görkəmli nümayəndələrindən biri olan Əhməd Naxçıvaninin dövrümüzə iki əsəri gəlib çatmışdır. Onlardan biri "Nüşabə qalası" kimi də tanınan Bərdə türbəsi (1322), digəri isə Qudi xatunun şərəfinə inşa edilmiş Qarabağlar Türbə Kompleksidir (XIV əsrin 30-cu illəri). Qarabağlar türbəsinin şimal tərəfindəki baştağın tündbənövşəyi rəngli kaşı yerliyi üzərində nəsx xətti ilə memar öz adını yazmışdır. Binanın kompozisiya həlli, həndəsi və yarımhəndəsi quruluşu, çoxrəngli kaşı ornamentlərin tətbiqi, kitabələrdən bəzək vasitəsi kimi istifadə edilməsi Əhməd Naxçıvaninin yaradıcılıq üslubu üçün səciyyəvidir. Ümumi quruluşunun fərdi cəhətləri ilə fərqlənən Axsadan baba türbəsinin (Bərdə şəhəri) də memarının Əhməd Naxçıvani olduğu güman edilir.

Qeyd edək ki, L.Bretanitski və Ə.Salamzadənin "Orta əsr Azərbaycan memarları və memarlıqla əlaqədar sənətkarlar", Məhəmmədəli Tərbiyətin "Danişməndani-Azərbaycan" kitablarında, bununla birlikdə bir çox mənbədə naxçıvanlı memarlar haqqında məlumatlara rast gəlinir.

*Unutmayaq ki, Naxçıvan memarları ümumşərq memarlığında görkəmli yer tuta bilən üsullar yaratmış və tətbiq etmişlər. Bu gün o memarların yaşadıqları, nəfəs aldıqları, möhtəşəm sənət əsərləri yaratdıqları bir torpaqda yaşadığımız üçün qürur duyuruq.*

**✍ Nərgiz İSMAYILOVA**

*Bu gün yel çərşənbəsidir*

# Vədə yeli yazın yelidir

***Xalq təqviminə uyğun olaraq Boz ayın ikinci çərşənbəsi "külək çərşənbəsi" və ya "yel çərşənbəsi" adlanır. Xalq arasında ikinci çərşənbə "külə çərşənbəsi", "xəbər çərşənbəsi" adı ilə də tanınmışdır. Toplanmış etnoqrafik materiallara əsasən, xalq arasında ikinci çərşənbənin bu cür adlanması belə izah edilir: bu çərşənbə hələ tam deyil, yəni külədir, qısadır. Bəzi tədqiqatçılar küləni gülə (gülə çərşənbə) kimi adlandırmış, bu sözün də ilk çiçək görünməsi ilə əlaqəli olduğunu qeyd etmişlər. Lakin sonrakı üçüncü çərşənbənin xalq arasında "quyruqlu çərşənbə" kimi adlanması sözün külə olduğunu deməyə imkan verir. Bundan əlavə, bu zaman əsən küləklərin yazın gəldiyini xəbər verməsi, havaların isinməsi, yazın əlaməti olan bəzi çiçəklərin açması baş verir ki, bu, "xəbər çərşənbə" adlanır.***

Külək çərşənbəsində küləklər əsməyə başlayır və gün ərzində bir neçə dəfə dəyişir. Bu dəyişikliklər havanın təmizlənməsi kimi qəbul edilir. Bu dövrdə əsən küləyə "vədə yeli" deyilir.

"Vədə yeli ağ yeldir" deyib atalarımız. O gələndə artıq qar əriyər. İranın Ərdəbil bölgəsində Novruz bayramına 17 gün qalmış külək əsməyə başlayır ki, xalq arasında buna da "vədə yeli" deyilir. Bu dövr də, hesablamalara görə, külək çərşənbəsinə təsadüf edir. Bu küləyin əsməsi təmizlik işlərinə başlamağın (bayram təmizliyi) vaxtını bildirir. Qaraqoyunlu türklərində Güney tərəfdən gələn yelə "ağ yel" deyərlər. Bu yel hər il fevral ayının sonunda əsər. Ağ yel isti bir yel olub qarları əridir. Bu yelin əsməsini xalq Novruzun gəlişi ilə bağlayır:

*Əsdi vədə yeli yaz müjdəsiylə,*<br>*Qondu eyvanıma yenə qaranquş!*

Bəzi tədqiqatçılar yazır ki, bu külək ilin müəyyən dövründə müntəzəm əsdiyindən "vədə küləyi" (yəni gözlənilən vaxtda əsən) adını almışdır. Xalq arasında vədə yelinə həm də "ələyəz yeli" (ələyəz ot adıdır), "ağ yel" deyilir. Bir deyimə görə, ələyəz yeli qalxdı, artıq qar əriyər, yaz gələr. Ələyəz yelinin hansı istiqamətə əsdiyi bilinməz. Buna uyğun olaraq Naxçıvan bölgəsində sözü, fikri, əqidəsi bilinməyən adama deyirlər – ələyəz yelidir, hərdən bir tərəfə əyilir.

Digər bir deyimə görə, vədə yeli yazın yelidir. Elə ki, əsməyə başladı, ağacların oyanmasına, köçəri quşların gəlməsinə köməklik göstərər. Köçəri quşlar (leylək, durna, qaranquş) yazın ilk müjdəçiləri hesab edilir. Bu quşların gəlməsi ilə əsl yaz başlayar. Xakas türklərində mart ayına "haan" deyərlər ki, bu da köçəri quşların geri döndüyü ay anlamında başa düşülür.

Xalq arasında belə bir deyim var ki, leylək deyər: "Təzə ildə gəlmərəm, köhnə ildə də qalmaram". Digər bir deyimə görə, leyləyə daş atmazlar, əgər atılarsa, küsüb gedər, yaz yubanar. İnanca görə, ilk gələn leyləyin dimdiyində ot görünürsə, bu, insanlar tərəfindən sevinclə qarşılanır. Leyləklə bağlı materiallara AMEA-nın müxbir üzvü Hacıqadir Qədirzadənin tədqiqatlarında da rast gəlirik. Bununla bağlı müəllif qeyd edir ki, xalqın müşahidələrinə əsasən, yazın ilk əlaməti leyləyin qayıtmasıdır. Leyləklər, əsasən, kiçik çillənin sonu, çilləbeçənin əvvəllərində gəlirlər. Bundan sonra havalar bir neçə günlüyə soyuyur, soyuq küləklər əsir. Buna "leylək boranı" deyirlər. Xalq arasında bu da geniş yayılıb ki, gərək leyləyin yumurtasının üstünə qar yağa. Ümumən, leyləklər erkən qayıtdıqda öz köhnə yuvalarına dönürlər. Onlar Novruzu yuvalarında keçirirlər. Türkiyənin Ədirnə bölgəsində bir atalar sözü var ki, bu atalar sözündə leyləyin yuvasına döndüyü zaman çox açıq bir şəkildə ortaya qoyulur: "Cəmrə havaya, leylək yuvaya…" Deməli, leyləklər yuvalarına cəmrələrin olduğu dövrdə, yəni köhnə ildə dönürlər.

Xalqın uzunmüddətli müşahidələrinə görə, quşların astral simvolika və feneoloji zaman hesablaması ilə əlaqəsi vardır. İnama görə, qartalın hərəkəti fəsillərin dəyişməsi ilə sıx bağlıdır. Qanadlarını bir dəfə çalanda yaz, iki dəfə çalanda qış gələr. Bundan əlavə, xalq arasında deyərlər ki, cəhrəçi quşun görünməsi yazın gəlməsinə bir işarədir. Bu köçəri quşlar içərisində yazın carçısı qaranquşla durnanı xüsusi qeyd etmək olar. Bizim mifologiyamızda da hər iki quşun feneoloji zaman hesablaması ilə əlaqəsi vardır.

İlin bu dövründə əsən küləklər Novruzdan bir həftə sonra dayanmağa başlayır. Tədqiqatçı alim İsmet Çetin yazır ki, küləyin getməsi, soyuqların olmaması münasibətilə Anadolunun bəzi bölgələrində damların üstündə yel çörəyi, yel hədiyi bişirilir və ətrafdakı evlərə paylanılır.

Xalq arasında deyilir ki, yaz ilin elə bir dövrüdür ki, hər şey ondan asılıdır. Gərək hər işi vaxtında, vədəsində görəsən. Bir el söyləməsində deyildiyi kimi, "hər şey vədəyə baxsa da, vədə heç nəyə baxmaz".

**Asəf ORUCOV**<br>***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

## Güləş birinciliyinə yekun vurulub

*Naxçıvan şəhərindəki Uşaq-Gənclər İdman Məktəbinin idman zalında 2004-2006-cı il təvəllüdlü uşaqlar arasında güləş üzrə məktəbin daxili birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının təşkilatçılığı ilə keçirilən yarışda 11 çəki dərəcəsində 60-dan çox güləşçi mübarizə aparıb. Yarışdan öncə çıxış edən federasiyanın sədr müavini Faiq İsgəndərov bildirib ki, güləşin muxtar respublikada uşaqlar arasında təbliği üçün butipli yarışlar mütəmadi olaraq təşkil edilir. İdmançılar bu yarışlarda iştirak etməklə həm də yarış təcrübələrini artırmış olurlar.

Gərgin keçən yarışın yekun nəticələrinə əsasən, Sinan Rzayev (20 kiloqram), Turqay Qəhrəmanov (23 kiloqram), Nicat Ocaqquliyev (26 kiloqram), Tuncay Məmmədov (29 kiloqram), Samir Bağırzadə (32 kiloqram), Elmir Kərimli (35 kiloqram), Həsənxan Xudiyev (38 kiloqram), Heydər Nəcəfov (42 kiloqram), Xanlar Əzizov (47 kiloqram), Nuruağa Əhmədov (53 kiloqram) və Ramazan Əliyev (66 kiloqram) öz çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda qalib idmançılara diplomlar təqdim edilib.

## Karate-do üzrə yoldaşlıq görüşü

***Ordubad şəhər 3 nömrəli tam orta məktəbin idman zalında 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə "Naxçıvan", "Şərur", "Ordubad" və "Culfa" komandaları arasında karate-do üzrə yoldaşlıq görüşü keçirilib.***

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi yoldaşlıq görüşü şotokan üslubunda, olimpiya sistemi üzrə keçirilib və 5 yaş qrupunda olan idmançılar mübarizə aparıblar. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin 4 mart 2005-ci il tarixli Sərəncamına əsasən hər il martın 5-i ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd edilir.

Sonra Karate-do Federasiyasının sədr müavini, yarışın baş hakimi Nəriman Quliyev çıxış edərək idmançılara yarışın qaydaları haqqında məlumat verib.

Yarışın yekun nəticəsinə əsasən, 6-7 yaş qrupunda Bünyamin Zeynalov (Ordubad), 8-9 yaş qrupunda Məhəmməd Şıxəlili (Naxçıvan), 10-11 yaş qrupunda Samir İbrahimli (Naxçıvan), 12-13 yaş qrupunda Vüsal Seyidov (Naxçıvan), 14-15 yaş qrupunda isə Murad Ələkbərov (Naxçıvan) müvafiq olaraq həmyaşıdları arasında birinci yerə layiq görülüblər.

Sonda hər yaş qrupunda yer tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

## İdmançılarımız ölkə çempionatında 7 medal qazanıblar

Ötən həftə Bakı şəhərində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin idmançıları arasında keçirilən güc çoxnövçülüyü üzrə ölkə çempionatına yekun vurulub. Üç gün davam edən yarışda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin yığma komandası da iştirak edib. İdmançılarımız bu yarışda uğurlu çıxış edərək 7 medal qazanıblar. İdmançılarımızın ən uğurlu nəticəni 65 kiloqram çəki dərəcəsində Rəşad Həsənov, 80 kiloqram çəki dərəcəsində Cavanşir Yaqubov, 90 kiloqram çəki dərəcəsində Elməddin Abdullayev və 90+ kiloqram çəki dərəcəsində Kamil Salayev əldə ediblər. Belə ki, bu idmançılarımız bütün rəqiblərini üstələyərək çempionatın qalibi adını qazanıblar. 70 kiloqram çəki dərəcəsində Orxan Babayev, 75 kiloqram çəki dərəcəsində Rasif Məmmədov və 90+ kiloqram çəki dərəcəsində isə Rauf Vəliyev üçüncü olublar. Qeyd edək ki, Rasif Məmmədov eyni zamanda qol güləşi yarışında da bürünc medal qazanıb.

Sonda çempionatda yer tutan idmançılarımıza təşkilatçılar tərəfindən diplom və medallar təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**


**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

*Naxçıvan Müəllimlər İnstitutu Təbiət və incəsənət fakültəsinin dekanı vəzifəsini tutmaq üçün müsabiqə elan edir*

Dekan vəzifəsini tutmaq üçün müsabiqədə elmlər doktoru, dosent və ya professor; fəlsəfə doktoru, dosent, fakültənin profilinə uyğun yüksək peşə-ixtisas hazırlığına malik əməkdaşlar iştirak edə bilərlər.

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində müvafiq qaydada qəbul olunur.

**Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 1,**<br>**Naxçıvan Müəllimlər İnstitutu**<br>**Telefon: 545-32-02**<br>**Rektorluq**

***İtmişdir***

Naxçıvan şəhəri, S.Məmmədova küçəsi, döngə 2, ev 3-də yaşamış Qurbanov Həsənağa Əli oğlunun adına olan evin 1883 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:**<br>**TURAL SƏFƏROV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*<br>*Şöbələr: 545-81-44, 545-51-18*<br>*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*<br>E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 179**